# Azərbaycan ilə Sloveniya arasında qarşılıqlı faydalı əməkdaşlıq davam etdiriləcək

## Sloveniya Respublikasının Prezidenti zati-aliləri xanım Nataşa Pirts Musara

Hörmətli xanım Prezident.

Sloveniya Respublikasının milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Sloveniya münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Sloveniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2024-cü il*

---

Azərbaycan.- 2024.-26 iyun, № 131.- S.1.